GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

www.qurtulush.se
qurtulush.partiyasi@gmail.com

# Güney azərbaycan Qurtuluş Partiyasının 21 Azər Hərəkatının 63-cü ildönümü ilə bağlı bildirişi

**Unudulmazdır 21 Azərin uğrunda verilən mücadilələrin xatirəsi!**

Ulu Azərbaycan Türk Millətinə!

1925-ci ildən bəri Fars hakimiyyəti tərəfindən assimila olunan və milli varlığı danılmaya uğrayan Güney Azərbaycan üçün 20-ci əsrin ortalarında tarixi bir fürsət ortaya çıxmışdır.
İllərdən bəri Tehran rejiminin yox etmə siyasətlərinə uğrayan, milli kimliyini qorumaq uğrunda Güney Azərbaycan, öz siyasi liderlərinin öndərliyində Fars sümürgəçiliyinə və Tehran köləliyinə qarşı üsyan bayrağı qaldıraraq – 21 Azər 1324 (12 dekabr/aralıq 1945) - öz milli hakimiyyətini qurmuşdur .

21 Azər, modern mənada ulus-dövlətləşmə sürəcinə girmiş olan bir millətin, öz varlığını qoruma və dövlətini qurma uğrunda verdiyi qanlı mücadilənin simvolu, müasir Güney Azərbaycan dövlətçiliyinin ən parlaq səhifəsidir. Sözsüz ki, 21 Azər, bir tarixəl miras olaraq özgür və bağımsız dövlətini quracaq gəncliyimiz üçün də, ilham qaynağıdır.

21 Azər, Azərbaycan Türk Milləti üçün öz gələcəyini əldə etmə məqsədilə ortaya qoyduğu iradənin simgəsi və bu xalqın qurtuluş mücadiləsinin bir başlanqıc nöqtəsidir.

Qurtuluş Partiyası olaraq 21 Azər istiqlal mücadiləsinin 63-cü ildönümü ilə bağlı millətimizi təbrik edir, Milli Hökümət təcrübəsindən yola çıxaraq Güney Azərbaycanın:

1. Öz milli hərəkətinin teorik əsaslarını inşa etməsini,
2. Yerəl və özəl dəyərlərilə çağdaş evrənsəl (dünya) demokratik dəyərləri birləşdirəbilən aydın kəsiminin yaradılmasını,
3. Milli Hərəkatın fikri-siyasi cəhətlərdən yönətəbiləcək kadrlarını yetişdirməsını,
4. G. Azerbaycan gərçəklərini dünya ictimaiyətində sürəkli olaraq gündəmdə tutabiləcək qurum və quruluşlarını təsis etməsini,
5. Özünə məxsus siyasi gələnəyinin yaradılmasını qaçırılmaz sayır və ən vacib şərtlər kimi dəyərləndirir.

Güney Azərbaycan Qurtuluş Partiyası, 1991-dən bəri bu məqsədlər uğrunda başladığı mücadiləsinə dəvam etməkdə və 21 Azərin özgür və bağımsız ölkəmizdə dəyərləndirməsinə inanmaqdadır.

Unudulmazdır 21 Azərin uğrunda verilən mücadilələrin xatirəsi!

Güney Azərbaycan Qurtuluş Partiyası
Yönətim Qurulu
2008-12-10